**https://doi.org/10.58225/tim.2026-1-9-15**

**M.A.Məmmədov**
***i.e.d., professor, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ORCID 0000-0002-5327-2507***
***m.m.asirli@mail.ru***
**İ.V.Fətəhov**
***doktorant, Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***ORCID 0000-0001-5557-3410***
***izmirfataxov@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 03.01.2026*
*The article was received by editorial board on 03.01.2026*
*Статья принята к печати 03.01.2026*

# İNSTİTUSİONAL İSLAHATLARIN APARILMASINDA PROQRAM-MƏQSƏDLİ YANAŞMA

**Xulasə**

*Azərbaycanda bazar iqtisadiyyatının formalaşdırılmasının ilkin mərhələsindən iqtisadiyyatın sahələrində yeni iqtisadi sistemin tələblərinə müvafiq inistisional islahatlar aparmaq və sonrakı dövürdə iqtisadiyyatın inkişafının təmin edilməsində mütəmadi proqram-məqsədli metodun tətbiqi prioritet istiqamət olmuşdur. İqtisadiyyatın sahələrində proqram-məqsədli metodun reallaşdırılmasnın məqsədli proqramlar vasitəsi ilə aparılması məqalədə ətraflı şərh edilmişdir. Məqalədə ölkə iqtisadiyyatının yenidən qurulması və inkişafına yönəldilmiş islahat, islahat-inkişaf və inkişaf xarakterli dövlət proqramları qruplaşdırılmış və qeyd edilən istiqamətdə həyata keçirilən tədbirlər tədqiq edilmişdir.*

***Açar sözlər:*** *proqram-məqsədli, instisional islahat, dövlət proqramı, strategiya, bazar iqtisadiyyatı, sosial-iqtisadi inkişaf.*

## GİRİŞ

Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə sosial-iqtisadi sahədə möcud olan problemlərin çevik və dinamik həll edilməsində, iqtisadiyyatın idarə olunmasında çox mühüm mütərəqqi proqram-məqsədli metodlarından geniş istifadə edilmiş və hal- hazırda iqtisadiyyatın sahələırinin dinamik və dayanaqlı ikişafının təmin edilməsində bu metod əsasında hazırlanmış və həyata keçirilən dovlət proqramları mühüm əhəmiyyətə malikdir . İqtisadiyyatın idarəedilməsində proqram -məqsədli metodların tətbiqinin müstəqilliyin ilk illərindən tətbiqi təcrübəsinin təhlili göstərir ki, bu metodan istifadə edilməsinin məqsədyönlüyü həll edilən problemin müvəqqəti xarakteri, nəzərdə tutulan vəzifəyə nail olmaq imkanlar və tədbirlərin kompleks xarakteri və və icrası ilə əlaqədar müəssisə, təşkilatlar arasə qarşılıqlı əlaqələrin olması tələbləri şərtlər ilə xarakterizə olunur.

## METODİK YANAŞMA

İqtisadiyyatın sahələrində islahatların aparılması, prioritet istiqamətlərin inkişafına yönəldilmiş proqram-məqsədli metodun reallaşdırılması məqsədli dövlət proqramlar vasitəsi ilə aparılır. İqtisadiyyatın sahələri üzrə hazırlanmış və icra müddətinə müvafiq həyata keçirilən dövlət proqraları ölkədə sosial-iqtisadi islahatların həyata keçirməsini , bazar iqtisadiyyatının formalaşmasını və inkişafını təmin etmiş, nəticədə ölkənin makro-iqtisadi göstəriciləri dünyanın inkif etmiş dövlətlərin iqtisadi göstəriciləri səviyyəsinə yüksəlmişdir. Azərbaycanda iqtisadiyyatının bütün sahələrinin prioritet istiqamətlərinin inkişafına yönəldilmiş dövlət proqramlarının həyata keçirilməsi ölkənin iqtisadiyyatının davamlı və dayanaqlı inkişafını təmin etmişdir. [1]

**TƏHLİL**

Azərbaycanda da digər postsovet respublikalarında olduğu kimi keçid dövrünün əvvəlində sürətlənən inflyasiya bir qədər sonra hiperinflyasiya ilə əvəz olunmuşdur. Belə ki, 1992-1994-cü illərdə malların və xidmətlərin istehlak qiymətlərinin toplu indeksi, habelə sənaye məhsullarının topdansatış qiymət indeksinin kəmiyyəti əvvəlki ilə nisbətdə 10 dəfədən artıq olmuşdur. Azərbaycan Respublikasında idxalın həcmi 1995-ci ildə 1991-ci il ilə müqayisədə 3 dəfə azalmışdır. Ölkədə transformasiya proseslərinin gedişində iqtisadiyyatda enmələr dərin olmuşdur. 1990-cı il ilə müqayisədə sənaye məhsullarının ümumi həcmi 1995-cı ildə 28% təşkil etmişdir. İqtisadiyyatda enmələr struktur dəyişiklikləri ilə yanaşı, müəssisələr üzərində dövlət himayədarlığının aradan qaldırılması, büdcə məhdudlaşdırmalarının kəskinləşməsi və bununla əlaqədar müəssisələrin bir qisminin müflisləşməsi zəruri bazar infrastrukturunun olmaması ilə əlaqədar yeniləşmələrdə çətinliklərin artması nəticəsində yaranmışdır yəni iqtisadiyyatda enmə məhz keçid prosesləri ilə bilavasitə əlaqədar olmuşdur. Bu isə bütün struktur səviyyələrdə resurs axınlarını tənzimləmək imkanlarını məhdudlaşdırmışdır [6].

Belə bir mərhələdə bazar iqtisadiyyatına keçid dövründə dövlətin yeni sistemin təşəkkülü ilə əlaqədar zəruri sahələrdə səmərəli fəaliyyətinin təmin edilməsi həm transformasiya prosesləri ilə bağlı itkilərin aşağı salınması, həm də həmin proseslərin sürətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Bu məqsədlə keçid proseslərinin sürətləndirilməsində iqtisadiyyatın sahələrində institusional islahatların aparılmasında digər metodlar ilə yanaşı dövlət məqsədli proqramlarının hazırlanması və həyata keçirilməsi prioritet istiqamət olmuşdur.

Ölkə iqtisadiyyatının sahələrində institusional islahatların aparılması bir vasitə kimi qarşıya qoyulmuş və bu hədəfə çatmaqda sahələr üzrə dölət proqramlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi hesabına nail olunmuş və bu istiqamətdə məqsədyönümlü işlər hal-hazırda davam etdirilir. Qeyd olunan məqsədə çatmaq istiqamətində keçid iqtisadiyyatının əvvəllərində Ulu Öndər Heydər Əliyevin müvafiq Sərəncamı ilə müstəqil dövlətimizdə bazar iqtisadiyyatının formalaşmasında və sahibkarlıq mühitinin yaradılmasında xüsusi əhəmiyyətə malik olan ilkin olaraq "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı", "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" və "Azərbaycan Respublikasında sahibkarlığa kömək üzrə Dövlət Proqramı (1993-1995-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa kömək üzrə Dövlət Proqramı (1997-2000-ci illər)" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" hazırlanmış və uğurla həyata keçirilməsi təmin edilmişdir. [3]

Qeyd edilən Dövlət Proqramları dövlət müstəqilliyi şəraitində, daha doğrusu milli iqtisadiyyatın fəaliyyət göstərməsi şəraitində ilk proqramlar olmuşlar. Onların hazırlanması və həyata keçirilməsi ilə dövlət proqramlaşdırılması praktikasının əsası qoyulmuşdur. Digər tərəfdən, həmin proqramlar institusional quruculuq yönümlü olsalar da müvafiq istiqamətlərdə inkişafla bağlı tədbirləri də əhatə etmələri sonrakı mərhələlərdə ölkəmizdə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı üzrə, habelə sosial-iqtisadi problemlərin həlli üzrə proqramların hazırlanması və həyata keçirilməsinə keçid üçün zəmin rolunu oynamışdır.

Sonrakı mərhələdə inistisional islahatların aparılması genişləndirilmiş , sosial-iqtisadi inkişafın və iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına yönəldilmiş məqsədli proqramların hazırlanması daha geniş sahələri əhatə etmişdir. Bu məqsədlə iqtisadiyyatın və sosial sferanın bütün əsas sektorlarının institusional islahatların aparılması, yenidənqurulması və inkişafını təmin edən Dövlət Proqramlarının hazırlanmasına başlanılmışdır. Beləki, ölkəmizdə iqtisadiyyatın bütün sahələrini əhatə edən 70-ə yaxın Dövlət Proqramları hazırlanmış və onların həyata keçi- rilməsi ölkənin iqtisadiyyatının sahələrində institusional islahatların aparılmasında mühüm rola malik olmuşdur. İqtisadiyyatın sahələrində institusional islahatların aparılması iqtisadi proqramlaşdırmanın vacib elementi kimi, bu proqramlarda zəruri məqsədlərdən biri kimi qarşıya qoyulmuş, tədbirlər icra edilmiş və hal-hazırda bu istiqamətdə müvafiq işlər davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və

davamlı inkişaf Dövlət Proqramı"nın və 2007-ci il 15 may tarixli 2167 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010-cu illər)" icrası çərçivəsində əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətdə olan müəssisələrin yenidənqurulması, yeni müəssisələrin yaradılması, institusional tədbirlərin həyata keçirilməsi istiqamətində tədbirlər nəzərdə tutulmuş və onların həyata keçirilirməsi təmin olunmuşdur. [1] [3].

Ölkədə bazar iqtisadiyyatına keçid şəraitində qeyd edilən yeni strukturların yaradılması prosesi dövlətin həmin sferalardan çəkilməsinin ardınca baş verə bilərdi. Bununla əlaqədar olaraq, bu proseslərin dövlət tərəfindən stimullaşdırılması və tənzimlənməsi xüsusi əhəmiyyətə malik olur. Azərbaycan iqtisadiyyatının yeni iqtisadi sistemə transformasiyasının ilk mərhələsində postsovet məkanında müstəqillik qazanmış bütün respublikalarda olduğu kimi müstəqil dövlətimizdə də iqtisadi əlaqələr demək olar ki, çox aşağı səviyyəyə düşmüş, ölkəmizə iqtisadiyyatın bütün sahələri üzrə dağılmış və tənəzzül etmiş bir iqtisadi durum miras qalmışdır. Bu dövrdə ölkəmiz ərazi münaqişəsinə cəlb edilmiş, ölkənin sərhədyanı rayonlarında demək olar ki, istehsal infrastrukturu tamamilə dağılmış, ölkədə maliyyə defisitliyi yaranmış, iqtisadiyyat tənəzzül etmişdir. Ölkə iqtisadiyyatının yenidən qurulmasını təmin etmək üçün münbit iqtisadi şərait yaratmaq, daxili investisiyanı formalaşdırmaq və xarici investisiyanı cəlb etmək məqsədilə müstəqil dövlətimizdə bazar iqtisadiyyatına keçidi formalaşdıran yeni inistisional islahatlar aparmaq məqsədi ilə proqram- məqsədli idarəetmə modelinin iqtisadiyyatın sahələrinə tətbiqi ən prioritet və zəruri istiqamət kimi aktual əhəmiyyət kəsb edirdi [5].

Dünyanın inkişaf etmiş dövlətlərinin bazar iqtisadiyyatının formalaşması mərhələsində keçid iqtisadiyyatının idarə edilməsi təcrübəsinə əsaslanaraq iqtisadiyyatın yenidən qurulması və idarə edilməsinin səmərəliliyini artırmaq üçün ölkə iqtisadiyyatının prioritet istiqamətləri üzrə proqram- məqsədli modelin tətbiq edilməsi və həyata keçirilməsi istiqamətində əhəmiyyətli işlər aparılmışdır.

Ölkə iqtisadiyyatının yenidən qurulması və inkişafını təmin edən amilləri nəzərə alaraq bu proqramları üç qrupda sistemləşdirərək nəzərdən keçirilməsini məqsədəmüvafiqdir. Bu qruplar üzrə aparılan araşdırmalar ölkə iqtisadiyyatında proqram məqsədli metodun tətbiqinin xüsusi əhəmiyyətə və onun iqtisadiyyatın inkişafında müstəsna rola malik olduğunu göstərir.

Ölkə iqtisadiyyatının müstəqilliyinin ilk illərində və sonrakı mərhələlərdə iqtisadiyyatın sahələri üzrə hazırlanan və tətbiq edilən 70 -ə yaxın Dövlət Proqramının ölkə iqtisadiyyatının inkişafında rolunu dəyərləndirmək məqsədilə onların bazar iqtisadiyyatının formalaşmasını təmin edən amillərə görə qeyd edildiyi kimi üç qrupda sistemləşdirilməsi, bizim fikrimizcə, iqtisadi proqramlaşdırma haqqında daha mükəmməl nəticə çıxarmağa imkan verər. Belə ki, birinci qrup Dövlət Proqramlarına keçid iqtisadiyyatının ilk mərhələsində böyük maliyyə vəsaiti və investisiya tələb etməyən, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq hazırlanmış islahat yönümlü və qanunvericiliyin təkmilləşdirilməsini nəzərə alan tədbirləri özündə əks etdirən proqramları aid etmək olar [3].

Müstəqilliyin ilk illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə iqtisadiyyatının yenidən qurulması və bazar iqtisadiyyatının formalaşdırılması istiqamətində qətiyyətli siyasəti nəticəsində 1994-cü ildən başlayaraq neft strategiyasının uğurla həyata keçirilməsi ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesinin və iqtisadiyyatın digər sahələrinin dinamik inkişaf etməsinin təməli olmuşdur. Bu sahələrin inkişaf etdirilməsi isə ölkədə bazar iqtisadiyyatının formalaşmasında müstəsna əhəmiyyətə malik olan yuxarıda qeyd edilən amilləri nəzərə alan birinci qrupa aid olan ilkin Dövlət Proqramları hazırlanması və həyata keçirilməsi iqtisadiyyatın yenidən qurulmasında xüsusi əhəmiyyətə malik olmuşdur. Ona görə də bütün postsosialist ölkələrdə olduğu kimi ölkəmizdə də yeni iqtisadi sistemə transformasiyanın ilk mərhələsindən başlayaraq iqtisadiyyatın idarə edilməsinin Dövlət Proqramları vasitəsilə həyata keçirilməsi bir məqsəd kimi qarşıya qoyulmuşdur və bu zaman hazırlanmış proqramlardan birinci qrupa aşağıdakıları aid etmək olar [5].

Müstəqilliyin ilk illərində iqtisadiyyatın yenidən qurulmasını təmin etmək məqsədilə Ulu öndərin müvafiq Sərəncamları ilə "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı", "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" qəbul edilmişdir. Azərbaycanda bazar transformasiyalarının başlanması dövrünün əvvəlində, yəni 1993-cü ildə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqda qəbul edilmiş Qanununda da bu prosesin Dövlət Proqramı vasitəsi ilə həyata keçirilməsi təsbit olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, ölkədə səmərəli islahatların aparılmasını davam etdirmək, kiçik və orta sahibkarlığın təşəkkül etməsini təmin etmək üçün "Azərbaycan Respublikasında sahibkarlığa kömək üzrə Dövlət Proqramı" (1993-1995), “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa kömək üzrə Dövlət Proq- ramı" (1997-2000) və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" (2002-2005-ci illər) təsdiq edilmiş və bu proqramlar bazar iqtisadiyyatının formalaşmasında müstəsna və həlledici rola malik olan sahibkarlıq fəaliyyətinin əsasını qoymuşdur. [1] [3].

Ölkə iqtisadiyyatının sahələrində islahatların aparılmasına, onun yenidən qurulmasına və inkişafına yönəldilmiş proqramların təhlili nəticəsində, ikinci qrup proqramlara sənayenin müxtəlif sahələrinin inkişafına, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisə və təsərrüfat subyektlərinin yaradılmasını və son nəticədə ölkənin maliyyə vəsaitinin artırılmasını təmin edən tədbirləri özündə əks etdirən proqramları aid etmək olar. Bu proqramların icra vəziyyətinin araşdırılması öz növbəsində bu qrup proqramların ölkədə pul vəsaitinin artırılmasında rolunu və əhəmiyyətini dəyərləndirməyə imkan verir. Bura "Enerji və su sektorunda maliyyə intizamının gücləndirilməsi Dövlət Proqramı", "Azərbaycanda vergi inzibatçılığının gücləndirilməsi Dövlət Proqramı", "Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı", sənayenin inkişafı üzrə tədbirlərin nəzərdə tutulduğu sahə Dövlət Proqramları və eyni zamanda bu mərhələdə Dövlət Proqramlarının həyata keçirilməsini tənzimləyən "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maşınqayırma sahəsində qarşılıqlı əlaqələr əsasında əmtəə dövriyyəsi və istehsalat kooperasiyası haqqında Sazişin təsdiq edilməsi barədə", "Enerji resurslarından istifadə haqqında", "Standartlaşdırma haqqında", "Müəssisələr haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında" və sair Qanunlar ilə tənzimlənən tədbirləri nəzərdə tutan Dövlət Proqramlarını aid etmək olar.

İqtisadiyyatda proqramlaşdırmanın tətbiqinin üçüncü qrupuna ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində artan maliyyə vəsaitləri hesabına respublikanın qeyri-neft sektorunun, regionların infrastrukturunun təkmilləşdirilməsinə və inkişafına, sosial-iqtisadi, o cümlədən elmi-texniki, səhiyyə, təhsil, incəsənət, ekologiya və s. sahələrə yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsini təmin edən Dövlət Proqramlarını aid etmək olar. Yəni “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası”, “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün dövlət proqramı”, ”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası”, ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair dövlət proqramı”, ” Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illərüçün dövlət proqramı”, ”Naxçıvan Respublikasının sosial-iqtisadi inkişafına dair2023-2027-ci illər üçün dövlət proqramı”, ”Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün dövlət proqramı”, ”Azərbaycan Respublikasının ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşınmaların təşviqinə dair 2024-2026-illər üçün fəaliyyət planı”, ”Su ehtiyatından səmərəli istifadəyə dair milli strategiya”, ”Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası”, ”Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün strategiya”, ”Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün dövlət proqramı” və s. hazırlanmış proqramlar ölkə iqtisadiyyatında şaxələndirilmiş instisional islahatların və innovativ tədbirlərin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir [7] [8].

Qeyd olunan qruplara aid olan islahat, islahat-inkişaf və inkişaf xarakterli dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ölkə iqtisadiyyatının dünya iqtisadi sistemə sərəli inteqrasiyasını , ölkənin davamlı və dayanaqlı inkişafını təmin etmişdir.

Beləliklə, dünyada geosiyasi və geoiqtisadi gərginliklərin davam etməsi, dünya iqtisadiyyatında qeyri müəyyənliklərin və risklərin artmasına baxmayaraq Azərbaycanda iqtisadiyyatın sahələrinin prioritetləri üzrə məqsədli dövlət proqramların hazırlanması və proqramda nəzərdə tutulan tədbirlərin icra müddətində həyata keçirilməsi iqtisadi göstəricilərin artımını təmin etmişdir. Belə ki, 2023-cü ildə ÜDM 1,1 faiz, qeyri neft-qaz sektorunda 3,7 faiz artımı təmin edilmişdir. Bu ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən əsas kapitala 20,3 milyard manat və ya 2022-ci ilə nisbətən 9,9 faiz çox vəsait qoyulmuş və neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 10,9 faiz , qeyri neft sektoruna isə yatırılmış vəsaitin həcmi 9,3 faiz artmışdır [9].

## NƏTİCƏ

Azərbaycan iqtisadiyyatının sahələrində inistisonal islahatların aparılması inkişafına yönəldilmiş dölət proqramları islahat, islahat-inkişaf və inkişaf xarakterlərinə görə üç qrupda sistemləşdirilmişdir. Dövlət proqramlarının hazırlanması və reallaşdırılmasında proqram – məqsədli metodun əhəmiyyəti geniş tədqiq edilmişdir və proqramların mütəmadi həyata keçirilməsinin iqtisadi göstəricilərin artım dinamikasının təmin edilməsi vəziyyəti təhlil edilmişdir.

### *İstifadə edilmiş ədəbiyyat:*


**1.** M.A.Məmmədov. (2008). Keçid iqtisadiyyatında proqram-məqsədli idarəetmə. Monoqrafiya. Bakı. Kooperasiya nəşriyyatı.

**2.** M.A.Məmmədov. (2006). Layihələrin proqramların idarə edilməsinin tarixi, metodları və prinsioləri. AMEA, İqtisadiyyat İstitutu. Elmi əsərlər. № 2. Bakı.

**3.** N.Əliyev, M.Məmmədov. (2013). Yanacaq-enerji kompleksinin inkişafı və idarə edilməsində iqtisadi 0proqramlaşdırma amili. Monoqrafiya. Bakı. Kooperasiya nəşriyyatı.

**4.** M.A.Məmmədov, İ.Məmmədov, Ə.Əliyev, N.Kazımov. (2025). İnvestisiya menecmenti. Dərslik.

**5.** Kryvoruchko, O., Fedotova, I., Mammadov, M., Dimitrakieva, S. Convergence of Preventive and Corrective Actions in Quality Management Systems for Achieving Sustainable Development Goals of Enterprises, Scopus. 2026, 1659 LNNS, стр. 114–125.

**6.** Mammadov, M.A., Yadigarov, T.A., Mammadova, F.A., Alizada Sh.I., Nagdiyev O.A., Safarova, G.N., Aliyev, A.M. An economic and mathematical modeling for risk assessment of innovative activities an enterprise in oil and gas industry. Socar ProceedingsOpen source preview, 2024, (4), страницы 139–146 (DOİ; 10.5510/OGP20240401029)

**7.** Mammadov, M., Mammadova, F., Kariuk, A., Mammadov, E. Economic Reforms and Development Strategies as Providing Sustainable Development Lecture Notes in Civil Engineering Open source preview, 2022, 181, страницы 669–676 (DOI: 10.1007/978-3-030-85043-2_63)

**8.** Iqtisadi Islahatların Təhlili və Kommunikasiya Mərkəzi, İqtisadi şuranın iclası, Bakı, 30. 01.2026.

**9.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. 2023-cü ilin əsas makroiqtisadi göstəriciləri.

**M.A.Mammadov**
*doctor of Economic Sciences, professor,*
*Azerbaijan University of Architecture and Construction*
*ORCID 0000-0002-5327-2507*
**I.V.Fatahov**
*PhD student, Azerbaijan University of Architecture and Construction*
*ORCID 0000-0001-5557-3410*

## Program-target approach to institutional reforms

**Abstract**

*From the initial stage of the formation of a market economy in Azerbaijan, the priority direction was to carry out institutional reforms in the sectors of the economy in accordance with the requirements of the new economic system and to ensure the development of the economy in the subsequent period, and the application of the regular program-targeted method was. The implementation of the program-targeted method in the sectors of the economy through targeted programs was explained in detail in the article. The article grouped the reform, reform-development and development state programs aimed at the reconstruction and development of the country's economy and examined the measures implemented in the mentioned direction.*

***Keywords:*** *program-targeted, institutional reform, state program, strategy, market economy, socio-economic development.*